BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2015*

UOT 347.9

# MÜLKİ İCRAATDA AVROPA STANDARTLARI

**S.H.MƏMMƏDLİ**
***Bakı Dövlət Universiteti***
***sabinaazizova1@gmail.com***

*Məqalə insan hüquqları sahəsində mülki prosessual hüquqda Avropa standartlarının tətbiqi məsələlərinə həsr olunub. 25 yanvar 2001-ci il tarixdən Azərbaycan Respublikası İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında 1950-ci il tarixli Avropa Konvensiyasının iştirakçısıdır və bununla belə bizim dövlətin vətəndaşları hüquq və azadlıqlarının qorunması üçün Avropa Məhkəməsinə müraciət etmə hüququnu qazanıblar. Azərbaycanda müasir mülki prosessual hüququnun tədqiqi göstərir ki, mövcud Avropa standartları məhkəmə icraatının əsas müddəalarında öz əksini tapıb.*

**Açar sözlər:** Avropa standartları, insan hüquqları, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, uşaq hüquqları, mülki icraat, məhkəmə hakimiyyəti

Azərbaycan Respublikasının 1995-ci il tarixli Konsitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi qeyd olunmuşdur (1, 7). Konstitusiyada təsbit edilmiş insan hüquqlarını və azadlıqlarını qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu hesab edilmişdir (1, 22). Sadalanan orqanların içərisində mülki hüquqların məhkəmədə müdafiə forması üstünlük təşkil edir (4, 14). İnsan hüquq və azadlıqlarının məhkəmə müdafiəsi pozulmuş hüquqla birbaşa əlaqədədir və bir çox başqa amillərdən asılı olaraq Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələrlə həyata keçirilir.

Konstitusiyanın 125-ci maddəsinə əsasən Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Beləliklə, pozulmuş mülki hüququn prosessual formada müdafiəsi konstitusion hüquqdur. Mülki icraat Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi əsasında keçirilir. Bu icraatda digər müvafiq normativ hüquqi aktlar da tətbiq olunur. Mülki məhkəmə icraatı Mülki Prosessual Məcəlləsinin normaları ilə tənzimlənən mülki işə baxılması və həll edilməsi ilə bağlı məhkəmənin və digər məhkəmə iştirakçılarının fəaliyyətidir (4, 25).

İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası (bundan sonra mətndə - Avropa Konvensiyası) Avropa Şurasının Nazirlər Komitəsinin 15 üzvü tərəfindən 4 noyabr 1950-ci ildə imzalanmış və 3 sentyabr 1953-cü ildə qüvvəyə minmişdir (3, 343). Azərbaycan Respublikası tərəfindən Avropa Konvensiyasının təsdiqlənməsi, eləcə də, İnsan hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasının tanınması insan hüquq və azadlıqlarının məhkəmə tərəfindən qorunmasının əhəmiyyətini daha da vurğulamış oldu. Azərbaycan Respublikası Avropa Konvensiyasının II bölməsi Avropa İnsan Hüquqları Məhkəməsinə həsr edilmişdir (7). Avropa Konvensiyası bir çox baxımdan nadirdir: bu, üzv dövlətlər üçün eyni zamanda mütləq olan və geniş spektrdə mülki və siyasi hüquqların qorunması məqsədini daşıyan ilk beynəlxalq sənəddir və iştirakçı dövlətlərin daxilində hüquqların həyata keçirilməsinə nəzarət mexanizmlərini müəyyən edir. Məhz bu səbəbdən Avropa Konvensiyası insan hüquqları sahəsində ən mükəmməl və effektiv beynəlxalq müqavilə kimi qəbul olunur (9).

Ümummilli lider Heydər Əliyevin 8 iyul 1996-cı ildə "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında", 20 yanvar 1998-ci il tarixli "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", 14 may 1999-cu il tarixli "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" Sərəncamları Avropa Şurası ilə əməkdaşlığın inkişafını təmin etdi (3, 344-345). Nəticə olaraq 25 yanvar 2001-ci il tarixdə Strasburqda təntənəli mərasimdə Azərbaycan Respublikası Avropa Şurasının tamhüquqlu üzvü elan olundu, 15 aprel 2002-ci il tarixdə isə Avropa Konvensiyası və onun Protokolları Milli Məclis tərəfindən ratifikasiya olundu. Bununla da Azərbaycan Respublikası Avropa Şurasına daxil olan hər bir üzv kimi Avropa Konvensiyasının və onun Protokollarının İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarları ilə yaradılan presedent hüququndan irəli gələn mühüm müddəaları öz qanunvericiliyinə daxil etmək öhdəliyini üzərinə götürdü. Azərbaycan Respublikası Avropa Konvensiyasını ratifikasiya edən dövrdən bu mühüm beynəlxalq aktda nəzərdə tutulan hüquqları və əsas azadlıqları təmin etməlidir (2, 29).

Avropa Konvensiyasının preambulasına uyğun olaraq, Avropa ölkələrinin ümumi irsinin əsas elementləri sırasında hüququn aliliyi durur ki, onun da çoxsaylı məqamlarından biri hüquq sistemi çərçivəsində fəaliyyət göstərən müstəqil və qərəzsiz məhkəmələrin rolu ilə bağlıdır. Bu rol Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndində əks olunmuşdur. Burada işin qanun əsasında yaradılmış tərəfsiz və müstəqil məhkəmə tərəfindən optimal müddət ərzində ədalətli və aşkar formada araşdırılmasını təmin etmək üçün ədalət məhkəməsinin aparılması prinsipləri formalaşdırılmışdır.

Məlum olduğu kimi, Konvensiyanı təsdiqləyən zaman dövlətlər öz üzərlərinə ikili öhdəlik götürmüş olurlar: birincisi, onlar Konvensiyanın qoruduğu

hüquq və azadlıqların istənilən pozuntularının qarşısını almalıdır; ikincisi, onlar daxili qanunvericiliklərinin Konvensiya ilə uyğunluğunu təmin etməlidirlər ki, bunun üçün də bəzi hallarda qanunvericiliyə və hüququn tətbiq olunması təcrübəsinə müəyyən dəyişikliklərin daxil edilməsi tələb olunur.

Konvensiyanın 6-cı maddəsinə əsasən iştirakçı dövlətlərin üzərinə ədalət məhkəməsinin lazımi şəkildə həyata keçirilməsi üçün tələb olunan institutların, eləcə də, məhkəmə icraatının ədalətli və qərəzsiz xarakterinə təminat verən qanunların qəbul olunması və həyata keçirilməsi üzrə institutların yaradılması və fəaliyyətinin təmin olunması üzrə öhdəlik qoyulur.

Qeyd etmək lazımdır ki, Avropa Şurasının Nəzarət orqanları Konvensiyanın 6-cı maddəsi ilə təmin olunmuş ədalət məhkəməsi və ədalətli məhkəmə araşdırılması hüququnu istənilən demokratik dövlətin əsas əlamətləri qismində qəbul edir və bu əsaslarla həmin maddədə əks olunmuş qaydaları həddindən artıq geniş şərh edir.

Belə ki, İnsan hüquqları üzrə Avropa Məhkəməsi Delkur Belçikaya qarşı (Delcourt v. Belgium) işində qət etmişdir ki, Avropa Konvensiyasının mənasına əsasən ədalət məhkəməsinin həyata keçirilməsi hüququ demokratik cəmiyyətdə elə mühüm yer tutur ki, 6-cı maddənin 1-ci bəndinin məhdud şərh olunması bu müddəanın məqsədinə və mənasına uyğun olmazdı (17 yanvar 1970-ci il tarixli Qətnamə, N 2689/65).

Analoji fikirləri rəhbər tutaraq, Avropa Şurasının Nazirlər Komitəsi Avropa Şurasının Nizamnaməsinin 15-ci maddəsinə əsasən ədalət məhkəməsinin lazımlı şəkildə həyata keçirilməsi qaydalarına riayət etməklə məhkəmə hüququnun sadələşdirilməsi məqsədlərinə nail olmağa yönəldilmiş tədbirləri nəzərdən keçirir və iştirakçı dövlətlərin hökumətləri tərəfindən qeyd olunan suallar sahəsində vahid siyasətin həyata keçirilməsini təmin edir (7).

Mülki prosesin müasir nəzəriyyəsində məhkəmə müdafiəsinin əlverişliliyi sözün geniş mənasında bir sıra hallarla əlaqələndirilir ki, onlardan ən vacibləri kimi aşağıda qeyd olunanlar qəbul olunur:

- pozulmuş və ya mübahisə olunan hüququn, qanunla qorunan marağın məhkəmə tərəfindən müdafiə olunması üçün məhkəməyə maneəsiz müraciət imkanı;
- işin açılması və aparılması prosedurunun, eləcə də qəbul olunmuş qərarın reallaşdırılmasının sadəliyi;
- məhkəmələrin məhkəmə müdafiəsi üçün müraciət edən şəxslərə ərazi baxımından yaxınlığı;
- dövlət rüsumunun və digər məhkəmə xərclərinin ödənilməsi zamanı prosessual güzəştlər sisteminin mövcud olması;
- işin məhkəmədə aparılması zamanı hüquqi yardım üçün müraciət etmək imkanı (6, 28).

İnsan hüquqları üzrə Avropa məhkəməsinin Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndinə uyğun olaraq məhkəməyə müdaxilə hüququnu nəzərdən keçirdiyi iki qrup işlər mövcuddur. Birinci qrup milli məhkəmələr və ya

inzibati ədliyyə orqanları tərəfindən mülki işlərin bəzi növlərinin baxılması prosesində məhkəməyə müraciət etmək hüququndan imtinaya etirazın edilməsi ilə əlaqədar olan işləri əhatə edir. İkinci qrupa məhkəmələrin hamı üçün əlverişli olmasına baxmayaraq, ağır xərclərin və ya mürəkkəb prosedurların həqiqətdə məhkəməyə müraciəti mümkünsüz etməsi ilə əlaqədar irəli sürülən iradlar aiddir (9, 204).

Məhkəməyə müraciət hüququnun ehtimal olunan pozulması ilə əlaqədar işlərdə söhbət bir mühüm prinsipdən gedir ki, o da dövlətin müəyyən sahələrdə və ya müəyyən iş kateqoriyalarına aid məhkəmə nəzarətini məhdudlaşdıra və ya ləğv edə bilməyəcəyindən ibarətdir.

Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin məzmununu müəyyən edən digər mühüm prinsip ondan ibarətdir ki, bu və ya digər məhkəmə instansiyasına müraciətetmə hüququ təkcə formal elan olunmalı deyil, həmçinin real, həyata keçirilə bilən olmalıdır. İnsan hüquqları üzrə Avropa Məhkəməsi bu prinsipi ədalət məhkəməsinə müraciətetmə hüququnun müxtəlif aspektlərinə aid bir sıra işlərin baxılması zaman tətbiq etmişdir.

Belə ki, Eyri İrlandiyaya qarşı işi üzrə qərarda Avropa Məhkəməsi ərizəçinin bir fikri ilə razılaşmışdır ki, onun hüquqlarının müdafiəsi ilə əlaqədar olan məhkəmə araşdırılması üzrə xərclər əslində ədalət məhkəməsinə müraciətetmə hüququnun pozulmasıdır (8).

Belə görünür ki, ədalət məhkəməsinə müraciətetmə hüququnun geniş anlamı tədqiqatın predmetinə ümumilikdə məhkəmə fəaliyyətinin açıqlığını təmin edən digər (yuxarıda qeyd olunanlardan əlavə) aspektlərin də daxil olunmasını tələb edir.

Onların sırasında aşağıdakıları qeyd etmək olar:

- Vətəndaşların və təşkilatların öz hüquqlarının məhkəmədə müdafiə vasitələri haqqında məlumatlılığı;
- Mülki işlərin məhkəmə araşdırmasının aşkarlığı;
- Yekun məhkəmə qərarlarının əlverişliliyi.

**Pozulmuş və ya mübahisə predmeti olmuş hüquqların məhkəmə müdafiəsinin təmin edilməsi.** Avropa Şurasının mülki işlər üzrə ədalət məhkəməsinin həyata keçirilməsi sahəsində mövcud standartları müəyyən sahələrdə və ya müəyyən işlər kateqoriyaları üzrə məhkəmə nəzarətinin məhdudlaşdırılmasına yol vermir. Hal-hazırda Azərbaycanda məhkəməyə müraciət etmək üzrə bütün məhdudiyyətlər aradan qaldırımışdır və praktiki olaraq, istənilən hüquqi iş məhkəmə araşdırılmasının predmetinə çevrilə bilər. Lakin məhkəmə müdafiəsi sahəsinin (hazırkı şəkildə) genişləndirilməsi mənfi cəhətlərə də malikdir: o, məhkəmə korpusunun işində əhəmiyyətli yüklənmələrə səbəb olur ki, bu da, təbii olaraq, ədalət məhkəməsinin açıqlığına və effektivliyinə ən mənfi şəkildə təsir göstərir.

**Məhkəmə sisteminin təşkil olunması və fəaliyyət göstərməsi haqqında məlumatlılıq.** Bir fikir aydın olur ki, (o cümlədən, Avropa Şurasının nəzarət orqanları üçün) pozulmuş və ya mübahisə olunan hüquqların real

müdafiəsini təmin etmək üçün nəzərdə tutulmuş institutların effektiv fəaliyyəti müstəsna olaraq, işdə maraqlı olan şəxslərin öz hüquqlarının məhkəmədə müdafiə olunması vasitələri haqqında məlumatlı olması şərti ilə mümkündür.

Avropa Konvensiyasının iştirakçısı olan ölkələrə müvafiq tələblər Avropa Şurasının Nazirlər Komitəsinin 14 may 1981-ci il tarixli R (81) 7 saylı "Nazirlər Komitəsi üzv dövlətlərə ədalət məhkəməsinə müraciətin asanlaşdırılması yolları haqqında" Tövsiyəsində şərh olunmuşdur (14). Tövsiyənin 1-ci bəndinə uyğun olaraq, üzv dövlətlərin səlahiyyətli orqanlarının üzərinə ictimaiyyətin məhkəmələrin yerləşdiyi ünvan və kompetensiyası barədə, eləcə də, məhkəməyə müraciət qaydası və ya məhkəmə araşdırılması yolu ilə şəxsi maraqlarının qorunması barədə məlumatlandırılması üzrə, tələb olunan tədbirlərin həyata keçirilməsi öhdəliyi qoyulur. Tövsiyə nəzərdə tutur ki, ümumi xarakterli müvafiq informasiya bilavasitə məhkəmə orqanlarına və ya hər hansı digər səlahiyyətli orqana təqdim oluna bilər. Bu zaman məhkəmə sisteminin təşkil olunması və fəaliyyət göstərməsi haqqında minimal tələb olunan informasiya həcmi aşağıda qeyd olunan məsələləri daxil edir:

- prosessual normalar (bir şərtlə ki, bu informasiya işin mahiyyəti üzrə hüquqi tövsiyələri daxil etmiş olmasın);
- məhkəməyə müraciət qaydası və müraciətin edilməsi mümkün olan müddətlər;
- prosessual tələblər və bununla əlaqədar olan sənədlər;
- məhkəmə qərarının yerinə yetirilməsi vasitələri və mümkün olduğu təqdirdə, onun yerinə yetirilməsi üzrə məsrəflər.

**Mülki işlərin məhkəmə araşdırılması prosedurunun sadələşdirilməsi**. Sirr deyil ki, mülki icraat adətən elə mürəkkəb, uzunmüddətli və bahalı xarakter daşıyır ki, maraqlı şəxslər ədalət məhkəməsindən yararlanmaq hüququnun həyata keçirilməsində əhəmiyyətli çətinliklərlə üzləşirlər. Bu səbəbdən də mülki icraatı sadələşdirmək, onu daha elastik və daha operativ etmək, eyni zamanda da, proses iştirakçılarına ənənəvi prosessual normaların təqdim etdiyi zəmanətləri qorumaq tələbi məntiqidir. Məhkəmə prosedurunun ədalət məhkəməsindən rahat yararlanma imkanının yaradılması məqsədinə qulluq edən sadələşdirilməsi müstəsna olaraq ədalət məhkəməsinin demokratik dövlətdə zəruri olan yüksək keyfiyyət səviyyəsinin təmin olunması şərtilə mümkündür.

Avropa Şurasının Nazirlər Komitəsinin 14 may 1981-ci il tarixli R (81) 7 saylı "Nazirlər Komitəsi üzv dövlətlərə ədalət məhkəməsinə müraciətin asanlaşdırılması yolları haqqında" Tövsiyəsi və 28 fevral 1984-cü il tarixli R (84) 5 saylı "Nazirlər Komitəsi üzv dövlətlərə mülki icraatın məhkəmə sisteminin təkmilləşdirilməsinə yönəldilmiş prinsipləri haqqında" Tövsiyəsi mülki işlərin məhkəmə araşdırması prosedurlarının sadələşdirilməsi barədə aşağıda qeyd olunan təklifləri daxil edirlər (14):

- mümkün olan yerlərdə sadələşdirmə və güzəştlərin tətbiq olunması üzrə, tərəflərin barışdırılması və ya mübahisənin icraata qəbul olunmasına qədər və ya məhkəmə araşdırması zamanı danışıqlarla tənzimlənməsi üzrə təd-

birlərlərin görünməsi;

- işdə vəkilin iştirakı mübahisənin xarakterindən asılı olaraq vətəndaşların ədalət məhkəməsindən yararlanması üçün imkanın yaradılması məqsədilə onların öz işlərini məhkəmədə şəxsən təqdim etmələri məqsədəuyğun olduqda mütləq olmamalıdır;

- məhkəmə prosesi adətən iki məhkəmə iclasından ibarət olmalıdır: birinci iclas hazırlıq xarakterini daşıya bilər, ikinci iclas zamanı isə sübutlar təqdim edilməli, tərəflərin dəlilləri dinlənilməli və mümkün olan halda qərar qəbul olunmalıdır;

- tələb olunan prosessual hərəkətləri müəyyən olunmuş qaydada və ya məhkəmə tərəfindən müəyyən olunmuş müddət ərzində yerinə yetirməyən istənilən tərəf barəsində müvafiq sanksiyalar tətbiq olunmalıdır. Hallardan asılı olaraq bu sanksiyalara prosessual hərəkəti yerinə yetirmək hüququndan məhrum etmə, zərərin əvəzini və məsrəfləri ödəmək haqqında qərar, cərimənin müəyyən olunması, ərizənin baxılmadan geri qaytarılması da aid oluna bilər;

- məhkəmə şahidləri çağırmaq, şahidlərin gəlmədiyi halda isə müvafiq sanksiyaları tətbiq etmək imkanına malik olmalıdır (cərimələr, zərərin ödənilməsi şəklində və sair). Şahidin məhkəməyə gəlmədiyi halda məhkəmə onun şahid ifadələrini dinləmədən araşdırmanın davam edilməsi barədə müstəqil qərar qəbul edir;

- əgər məhkəmə tərəfindən təyin olunmuş ekspert iş üzrə öz qərarını təqdim etmirsə və ya onun təqdim olunmasını hər hansı üzrlü səbəb olmadan gecikdirirsə, ona qarşı da həmçinin, müvafiq sanksiyalar tətbiq olunmalıdır. Bu sanksiyalar qonorarın həcminin azaldılmasından, məsrəflərin və vurulan zərərin əvəzinin ödənilməsi haqqında qərarın qəbulundan, eləcə də, məhkəmə tərəfindən və ya ekspertin çalışdığı təşkilat tərəfindən intizam tədbirlərinin görülməsindən ibarət ola bilər;

- hər hansı tərəf məhkəmə araşdırması zaman özünü insafsız tərzdə aparırsa və işin araşdırmasını uzatmaq məqsədi ilə proseduru aşkar şəkildə pozursa, məhkəmə mübahisənin mahiyyəti üzrə qərar qəbul etmək səlahiyyətinə malik olmalıdır və ya məsələn, cərimənin tətbiq edilməsi, zərərin ödənilməsi öhdəliyini qoymaq, prosessual hərəkətlərin yerinə yetirilməsi hüququndan məhrum etmək kimi sanksiyaları tətbiq etməlidir;

- iş üzrə yekun qərar məhkəmənin yekun iclasında və ya iclasın başa çatmasından sonra ən qısa müddətdə qəbul olunmalıdır. Qərar mümkün qədər qısa və dəqiq olmalıdır;

- məhkəmə qərarının qəbulundan sonra hüquq müdafiə vasitələrindən sui istifadə hallarının qarşısını almaq üçün müəyyən tədbirlər görülməlidir. Xüsusilə də, şikayət vermək hüququnun qərəzli istifadə olunmamağı üçün barəsində şikayət vermək mümkün olan qərarların müvəqqəti icra olunması imkanına, eləcə də, qərarın tam icra olunmasına qədər məhkəmə qərarı əsasında kəsilmiş məbləğ üzrə ödənilən bank faizinə xüsusi diqqət yetirmək lazımdır.

Mülki işlər üzrə ədalət məhkəməsinin müəyyən edilən vaxtda həyata

keçirilməsi. 14 May 1981-ci il tarixli R (81) 7 saylı “Nazirlər Komitəsi üzv dövlətlərə ədalət məhkəməsinə müraciətin asanlaşdırılması yolları haqqında” Tövsiyəni və 28 fevral 1984-cü il tarixli R (84) 5 saylı “Nazirlər Komitəsi üzv dövlətlərə mülki icraatın məhkəmə sisteminin təkmilləşdirilməsinə yönəldilmiş prinsipləri haqqında” Tövsiyəni qəbul edərkən Avropa Şurasının Nazirlər Komitəsi ondan irəli gəlirdi ki, mülki icraatın üzv dövlətlərdə qəbul olunmuş bəzi norma və prosedurlar müəyyən hallarda ədalət məhkəməsinin effektiv həyata keçirilməsinə maneələr yaradır. Bu cür normalar (prosedurlar) artıq müasir cəmiyyətin tələbatlarına cavab verməyə bilər və ikincisi də, proses iştirakçıları məhkəmə araşdırmasının vaxtını uzatmaq üçün onlardan sui-istifadə edə bilərlər. Bu cür sui-istifadələrin qarşısını almaq üçün məhkəmə qısa zaman ərzində məhkəmə araşdırmasının qarşısını almaq üçün aktiv fəaliyyət göstərməli və bu zaman hüquqlara, o cümlədən, bitərəflik hüququna hörmət etməlidir.

Məhkəmə, xüsusilə də, aşağıda qeyd olunan səlahiyyətlərə malik olmalıdır:

- lazım bildiyi izahları tərəflərdən tələb etmək;
- tərəflərin məhkəməyə şəxsən gəlmələrini tələb etmək;
- şahidləri dəvət etmək, xüsusən də, söhbət işdə iştirak etməyən şəxslərin maraqlarından gedən halda;
- şahidlərin ifadələrinin alınması prosesinə nəzarət etmək;
- araşdırmada mümkün ifadələri işə aid olmayan şahidlərin iştirakını ləğv etmək, iş üzrə şahidlərin sayını məhdudlaşdırmaq.

Qanunla digər şərtlərin müəyyən olunduğu hal istisna olmaqla, tərəflərin iddia ərizələri və ya iş üzrə etirazları icraatın mümkün qədər erkən mərhələsində və istənilən halda onun ilkin mərhələsinin başa çatmasına qədər (əgər olarsa) təqdim olunmalıdır. İkinci instansiya məhkəməsində işin şikayət əsasında baxılması zamanı məhkəmə adətən birinci instansiya məhkəməsinə təqdim olunmayan halları nəzərə almır (istisnalar: əgər onlar işə birinci instansiya məhkəməsi tərəfindən baxılan zaman məlum deyildir; onları təqdim edən şəxs birinci instansiya məhkəməsinin iştirakçısı olmamışdırsa, onların tanınması üçün müəyyən xüsusi səbəblər varsa).

Bundan əlavə, 28 fevral 1984-cü il tarixli R (84) 5 saylı Tövsiyədə qeyd olunmuşdur ki, üzv dövlətlər mübahisənin həllini sürətləndirən konkret qaydaları və ya qaydalar məcmusunu hazırlamalıdırlar: a) təxirəsalınmaz işlər üzrə hallarda; b) mübahisə olunmayan hüquq ilə əlaqədar hallarda; c) kiçik məbləğlər üzrə iddialarla bağlı hallarda; d) ayrı-ayrı iş kateqoriyaları üzrə (yol – nəqliyyat hadisələri, əmək mübahisələri, mənzilin icarədarı və icarəçisi arasında mübahisələrin həllinə dair işlər, ailə hüququnun bəzi məsələləri, xüsusilə də, alimentlərin məbləğinin müəyyən olunması və yenidən baxılması ilə əlaqədar işlər).

Bu məqsədlə aşağıda göstərilən tədbirlərin istifadəsi təklif olunur:

- araşdırmanın başlanması üzrə sadələşdirilmiş tədbirlər;
- məhkəmə araşdırmasının iclaslar keçirmədən aparılması və ya yalnız bir

iclasın keçirilməsi;

- hallardan asılı olaraq, müstəsna olaraq yalnız yazılı və ya şifahi icraatın həyata keçirilməsi;
- müəyyən etirazların və ya izahların qadağan edilməsi və ya məhdudlaşdırılması;
- ifadələrin verilməsi üzrə daha elastik qaydalar;
- icraatın fasiləsiz və ya çox kiçik fasilələrlə həyata keçirilməsi;
- məhkəmə ekspertinin "ex officio" və ya mümkün olan halda məhkəmə prosesinin başlanmasına qədər tərəflərin xahişi ilə təyin olunması;
- məhkəmənin işin aparılmasında, o cümlədən, şahidlərin çağırılmasında və ifadələrin dinlənilməsində aktiv fəaliyyəti.

**Hakimlərin səriştəsi, müstəqilliyi və qərəzsizliyi**. Ədalət məhkəməsindən yararlanmaq hüququnun mühüm təminatı hakimlərin səriştəsinin, müstəqilliyinin və qərəzsizliyinin, yəni hər bir insanın məhkəməyə öz hüquqlarının qorunması üçün müraciət etdiyi zaman ümid etdiyi peşəkar keyfiyyətlərin təmin olunmasıdır ki, onların reallaşdırılması öhdəliyi Avropa Şurasının üzv dövlətlərinin öhdəliyinə aiddir.

Öhdəliklərini yerinə yetirən zaman hakimlər minimal olaraq aşağıda qeyd olunan tələblərə cavab verməlidir: 1) Onlara müraciət edən şəxslərlə münasibətdə hörmətli və əlçatan olmaq; 2) hər konkret halda işlərin həll olunması üçün tələb olunan yüksək səriştəlilik səviyyəsini qorumağa çalışmaq (10 iyul 1998-ci il tarixli "Hakimlərin statusu haqqında" Avropa xartiyasının 1.5 bəndi).

Hüquqi yardım və hüquqi məsləhətlər. Məlumdur ki, istənilən ölkənin məhkəmə orqanlarında işin aparılması müxtəlif məsrəflərin çəkilməsini nəzərdə tutur (dövlət rüsumunun ödənilməsi, vəkil xidmətlərinin və digər məhkəmə xərclərinin ödənilməsi, məhkəmə girovunun qoyulması və sair). Bu zaman bu məsrəflərin həcmi qeyri-məhdud hüdudlarda dəyişə bilər. Bu hal ən ciddi şəkildə məhkəmə müdafiəsi üçün müraciət hüququnun həyata keçirilməsini çətinləşdirə və ya ümumiyyətlə mümkünsüz edə bilər.

Beləliklə, Konvensiyanın iştirakçı dövlətləri mülki işlər üzrə ədalət məhkəməsinə müraciət üçün iqtisadi maneələrin aradan qaldırılması məqsədi ilə zəruri tədbirləri həyata keçirməlidir.

Hesab olunur ki, qeyd olunan məqsədə nail olunmasına məhkəmə məsrəflərinin azaldılması, məhkəmə xərcləri sisteminin sadələşdirilməsi, vəkil və ekspertlərin qonorarlarının həcminə nəzarətin təmin olunması (14 may 1981-ci il tarixli R (81) saylı Tövsiyə), eləcə də, hüquqi yardımın müvafiq sistemlərinin mövcudluğu (xüsusilə də, xoşagəlməz vəziyyətdə olan şəxslər barəsində) yardım edə bilər. Hüquqi yardımın göstərilməsinin maliyyələşdirilməsi öhdəliyi müstəsna olaraq dövlətin üzərinə düşür.

Mülki işlər üzrə hüquqi yardımın göstərilməsinin əsas prinsipləri Avropa Şurasının Nazirlər Komitəsinin 2 mart 1978-ci il tarixli (78) 8 saylı "Hüquqi yardım və konsultasiyalar haqqında" Qətnaməsində müəyyən olunmuşdur (14).

2 mart 1978-ci il tarixli (78) 8 saylı Qətnaməyə uyğun olaraq, dövlət

maddi vəziyyəti zəif olan şəxslərə onların hüquq və maraqlarına aid olan bütün məsələlər üzrə tələb olunan hüquqi konsultasiyanı almaq imkanını təmin etməlidir. Hüquqi konsultasiyalar təmənnasız və ya konsultasiya üçün müraciət etmiş şəxs tərəfindən onun maliyyə imkanlarına uyğun məbləğin ödənilməsi şərti ilə göstərilməlidir.

Mülki icraatın açıq şəkildə (aşkarlıq prinsipi) həyata keçirilməsi. Məlumdur ki, ictimai icraat geniş ictimaiyyətin maraqlarına qulluq edir və bununla da ədalət məhkəməsinin həyata keçirilmə şəraitinə etibarı təmin edir. İnsan hüquqları üzrə Avropa məhkəməsi bir neçə iş üzrə qət etmişdir ki, aşkarlıq prinsipi Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndində qeyd olunmuş şərtlərdən birinin təhlükədə olduğu təqdirdə (mənəviyyat, ictimai qayda və ya demokratik ölkədə dövlət təhlükəsizliyi, tərəflərin şəxsi həyatlarının müdafiə olunması zərurəti və ya ədalət məhkəməsinin maraqlarının pozulması imkanı) tam şəkildə qorunmalıdır. Yalnız qeyd olunan müəyyən hallarda ictimaiyyət və mətbuat təmsilçiləri məhkəmə iclasının keçiriləcəyi zala buraxılmırlar. Mülki icraatın aşkarlıq prinsipinin qanunvericilikdə müəyyən olunmuş məhdudiyyətləri əksər hallarda yuxarıda qeyd olunan şərtlərə uyğun gəlir.

Son illərdə İnsan hüquqları üzrə Avropa məhkəməsi qəbul etmişdir ki, Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndi ilə müəyyən olunmuş "işin açıq araşdırılması" konsepsiyası ən azı birinci instansiya səviyyəsində şifahi araşdırma hüququnu da əhatə edir (9, 212). Bu hüququn pozulması bu və ya digər şəxsin şifahi araşdırmanın aparılması xahişi ilə müraciət etdiyi halda qeydə alınır, və bu cür araşdırmanın həyata keçirilməsinə imtinanı əsaslandıra biləcək hər hansı müstəsna hallar mövcud deyil.

Yekun məhkəmə qərarlarının əlverişliliyi. Məhkəmə aktlarının əlverişliliyi haqqında məsələ qanunun ədalətli tətbiq olunmasının əsas şərtlərindən biri kimi bütün məhkəmələrin təcrübəsi haqqında tam məlumatlılıq tələbi ilə əlaqədar yaranır. Avropa Şurasının Nazirlər Komitəsi 11 sentyabr 1995-ci il tarixli R (95) 11 saylı "Nazirlər Komitəsi üzv dövlətlərə hüquqi informasiya-axtarış sistemlərində məhkəmə qərarlarının seçilməsi, işlənməsi, təqdim olunması və arxivləşdirilməsinə dair" Tövsiyəsində qeyd etmişdir ki, ədalət məhkəməsinin həyata keçirilməsi üçün məhkəmə təcrübəsi haqqında informasiyanın axtarış sistemlərinin mövcud olması zəruridir.

Avtomatlaşdırılmış axtarış sistemlərinin vəzifələri bu Tövsiyəyə uyğun olaraq aşağıda qeyd olunanlardan ibarətdir:

- hüquqşünasların qısa zaman ərzində tam və dolğun informasiya ilə təmin olunması yolu ilə onların işini asanlaşdırmaq;
- məhkəmə təcrübəsinə bilavasitə və ya dolayı maraq göstərən bütün şəxslərə informasiyanı təqdim etmək;
- yeni məhkəmə qərarları haqqında informasiyanı, xüsusilə də hüququn inkişaf edən sahələrində informasiyanı daha sürətlə yaymaq;
- məhkəmə təcrübəsinin vahidliyinə çalışmaq;
- qanunvericilərə qanunların tətbiq olunması təcrübəsini təhlil etmək imka-

nını yaratmaq;

- müəyyən hallarda statistika məqsədləri üçün informasiyanı təqdim etmək.

Avtomatlaşdırılmış axtarış sistemlərinin üzərinə qoyulmuş vəzifənin vacibliyini dəyərləndirməmək mümkün deyil. Məhkəmə sisteminin dövlət hakimiyyətinin müstəqil bir qolu qismində təşkil olunması mütləq şəkildə məhkəmə orqanlarının normayaradıcı funksiyasının əmələ gəlməsini nəzərdə tutur ki, bu da öz növbəsində onların qəbul etdikləri aktların dərc olunması (bu və ya digər formada) zərurətini yaradır.

Beləliklə**,** Avropa Konvensiyasının tətbiq olunması təcrübəsi göstərir ki, barəsində Konvensiyanın müddəalarını pozması haqqında qərarın qəbul edildiyi dövlətlər adətən bu cür pozuntuların aradan qaldırılması üzrə, o cümlədən, öz qanunvericiliklərinə dəyişikliklər etmək yolu ilə aradan qaldırılması üzrə tədbirlər görürlər. Belə ki, Almaniyada mülki işlərin araşdırılması proseslərinin sürətləndirilməsi sahəsində tədbirlər görülmüşdür; İrlandiyada məhkəmə araşdırması proseduru sadələşdirilmiş və hüquqi yardım və konsultasiyalar sistemləri yaradılmışdır; İsveçdə hökumətin qərarlarının məhkəmə qaydasında yenidən baxılması qanunu tətbiq edilmişdir və s. (5, 13-14).

Qeyd etməliyik ki, Azərbaycan Respublikasında da Avropa Şurasının mülki icraat sahəsində hüquqi təfəkkürün, qanunverici fəaliyyətin və hüququn tətbiq olunması üzrə təcrübənin mövcud standartları ilə tam uyğun vəziyyətə salınması prosesi davam edir. Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının presedentlərinin düzgün və vahid qaydada tətbiqinin təmini məqsədilə Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumu 2006-cı il 30 mart tarixində xüsusi olaraq 5 saylı qərar qəbul etmişdir (2, 26-38). Azərbaycan Respublikasının Mülki Prosessual Məhkəməsinin 16-ci maddəsinə əsasən, dövlətdaxili hüquqi müdafiə vasitələri bitərsə, insan hüquqlarının və azadlıqlarının müdafiəsi üçün beynəlxalq məhkəmələrə müraciət edə bilərlər. Yetkinlik yaşına çatmayanlar da "*ratione persona*" olaraq İnsan hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmə hüququna malikdilər. Yetkinlik yaşına çatmayanların hüquqlarının Avropa Məhkəməsində müdafiəsi adətən Avropa Konvensiyasının 3, 6, 8, 9 və 14 maddələrinin pozulması ilə əlaqədar olur. Beynəlxalq məhkəmədə işə baxılarkən, bir çox sənədlərdə qərarlanmış Avropa standartları ilə yanaşı BMT-nin 1989-cu il tarixli uşaq hüquqları haqqında Konvensiyaya da istinad olunur. Əksər hallarda Avropa Məhkəməsinə yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi ilə əlaqədar onların valideynləri müraciət edir.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2014, 50 s.
2. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun Qərarlar Məcmuəsi (1991-2008). Bakı: Hüquq ədəbiyyatı, 2008, 380 s.
3. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı: Hüquq ədəbiyyatı, 2013, 506 s.
4. Mövsümov M.A. Mülki proses. Dərslik. Bakı: Qanun, 2011, 416 s.
5. Права человека: постоянная задача Совета Европы / Перевод с англ. языка А.Иван-

ченкова. М.: Права человека, 1996, 128 с.
6. Решетникова И.В., Ярков В.В. Судебная реформа в сфере гражданской юрисдикции в России // Судебная реформа: проблемы гражданской юрисдикции. Екатеринбург: изд-во Гуманитар. Ун-та, 1996, с. 20-29
7. European convention on human rights and fundamental freedoms, 1950 / www.echr.coe. int/.../Convention_ENG.pdf
8. Airey v. Ireland - HUDOC - European Court of Human Rights (case N 6289/73, 9.10.79) / hudoc.echr.coe.int/sites /eng/.../search.aspx?i...
9. Gomien D., Harris D., Zwaak A. European Convention for the Protection of Human Rights and Fundamental Freedoms and the European Social Charter: The law and practice. Strasbourg, 1998.
10. Harris D., O'Boyle M., Warbrick C. Law of the European Court of Human Rights. Materials. L.: Oxford University Press , 1995.
11. Harris D.Y., O'Boyle M., Bates E.P., Buckley C.M. Law of the European Convention of Human Rights. N.Y.: Oxford University Press, 2009, 902 p.
12. International Covenant on Civil and Political Rights, 1966/https://treaties.un.org/ pages/
13. The United Nationals Convention on the Rights of the Child, 1989 / childrensrights.ie /childrens-rights.../un-conventi
14. The Commettee Ministers of Council of Europe / http://www.coe.int/t/cm/home_en.asp

## ЕВРОПЕЙСКИЕ СТАНДАРТЫ В ГРАЖДАНСКОМ СУДОПРОИЗВОДСТВЕ

**С.Г.МАМЕДЛИ**

### РЕЗЮМЕ

Статья посвящена вопросам европейского права и гражданского процесса в области защиты прав человека. Азербайджанская Республика присоединилась к Европейской Конвенции о защите прав и основных свобод человека 1950 года. И благодаря этому граждане Азербайджанской Республики получили возможность обращаться в Европейский суд по правам человека. Анализ современного гражданского процессуального права показывает, что в нем почти полностью отражены европейские стандарты судопроизводства.

**Ключевые слова:** Европейские стандарты**,** Совет Европы, права человека, международное право, международные отношения, права ребенка, гражданский процесс, судебная власть.

## EUROPEAN STANDARDS IN CIVIL PROCEEDINGS

**S.H.MAMMADLI**

### SUMMARY

The article is devoted to questions of European law and civil procedure in the field of human rights protection. Azerbaijan joined the European Convention on Human Rights and Fundamental Freedoms in 1950. Therefore, the citizens of the Republic of Azerbaijan were able to appeal to the European Court of Human Rights. The analysis of the current civil procedural law shows that it almost completely reflects European standards of justice.

**Keyword:** European standards, the Council of Europe, human rights, international law, international relations, children's rights, civil procedure, judicial power.